# Qəbələlilər ümummilli liderin doğum gününü yüksək ehtiramla qeyd etdilər

Azərbaycan xalqı dünyada XX əsrin böyük siyasi xadimlərindən biri kimi tanınan və həmişə şəxsiyyətinə yüksək ehtiram bəslədiyi və onunla fəxr etdiyi özünün doğma oğlu Heydər Əliyevin doğum gününü hər il təntənə ilə qeyd edir. Bu təntənəyə qəbələlilər də ürəkdən qoşulur. Rayon sakinlərinin böyük hissəsi mayın 10-da səhər tezdən Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünü qeyd etmək üçün şəhərin mərkəzində salınmış Heydər Əliyev parkına toplaşmışdılar. Park bayramsayağı bəzədilmiş və musiqi sədaları ətrafı bürüyürdü. Hamının üzündə və gözündə böyük şəxsiyyətlə bağlı sevinc və fəxarət hissi duyulurdu.





Ulu öndərin doğum gününü qeyd etməyə gələnlər arasında yaşlı nəslin nümayəndələri, iş adamları, sahibkarlar, gənclər, qadınlar məktəblilər də vardır. Heydər Əliyev vaxtilə, yəni respublikanın rəhbəri olduğu illərdə 2 dəfə Qəbələdə olmuşdur. Onun hər bir gəlişi Qəbələni yeni sürətli inkişaf yoluna çıxarmış, əhalinin yaşayış səviyyəsinin gündən-günə yaxşılaşmasına, yüksəlməsinə təkan vermişdir. Uzaqgörən siyasi xadim bu günki etimadı və ehtiramı, özünə qarşı rəğbəti sağlığında ikən qazanmışdır. Qəbələnin respublikanın dilbər güşələrindən biri, gözəl məkan kimi dünyanın İsveçrəsi adlandırılması, burada turizmin inkişafı üçün kifayət qədər potensial olmasının üzə çıxarılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Doğma Qəbələmizə verilən bu qiymətləri bu gün də qəbələlilər yaddan çıxarmır, məhz onun təşəbbüslərinin icrası hazırda rayonu bütün sahələr üzrə ən yüksək pilləyə qaldırmaqdadır.



Bəli, vaxtilə geridə qalmış, hətta respublikanın özündə belə yaxşı tanınmayan ən ucqar bir rayonun səsi indi dünyanın bir sıra lider ölkələrindən gəlir. İndi Qəbələ nəinki respublikanın regional mərkəzlərindən birinə çevrilmiş, hətta qitələrin regional mərkəzlərindən sayılır. Artıq çox qısa zaman kəsiyində sürətlə inkişaf edən Qəbələ regional elmi konfranslara, beynəlxalq tədbirlərə ev sahibliyi edir. Hər il burada mədəniyyət və incəsənət tədbirləri, idman tədbirləri, beynəlxalq musiqi festivalları keçirilir. Hətta qeyd edilməlidir ki, bəzən burada qlobal proseslərin gedişi ilə bağlı məsələlərin müzakirəsi ilə əlaqədar dünya siyasətçilərinin görüşləri də təşkil olunur. Belə tədbirlər Qəbələ üçün, bütöv Azərbaycan üçün böyük fəxarətdir. Bu cür yüksək tədbirlərin keçirilməsinə artıq Qəbələdə hər cür şərait yaradılmışdır. Bütün bunlar Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrələridir. Məhz Qəbələ əhalisi belə uğurları açıq şəkildə görür, duyur və qiymətləndirir.

Mayın 10-da düz saat 10 tamamda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və digər rəsmi şəxslər Heydər Əliyev Parkına gəldilər. Artıq park insan axını ilə dolmuş, onlar Heydər Əliyevin burada ucaldılmış abidəsini ziyarət etməyə hazır idilər. Öncə cənab Səbuhi Abdullayev abidə önünə tər gül dəstələri düzdü və dahi şəxsiyyətin xatirəsinə öz ehtiramını bildirdi. Sonra ayrı-ayrı idarə və müəssisə rəhbərləri, onların kollektivləri nizamla ulu öndərin abidəsini ziyarət etdilər. Ziyarətçilər parkda təşkil olunmuş gül bayramında iştirak etdilər.

Abidə önünə gələn qəbələlilərin ardı-arası kəsilmirdi. Təntənəli tədbir günün ikinci yarısından xeyli keçənədək davam etdi. Qəbələlilər bu təntənəli bayram tədbirində fəal iştirak etməklə bir daha sübut etdilər ki, ümummilli lider Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsində bundan sonra da ölkə başçısı cənab İlham Əliyevin dövlətimizin, o cümlədən doğma Qəbələmizin inkişaf naminə qarşıya qoyduğu vəzifələrin həllində əllərindən gələni əsirgəməyəcəklər.

**Nadir ATAKİŞİYEV.**

# Böyük qələbənin 70 illiyi qeyd olundu

Dünyanın tərəqqipərvər qüvvələri ikinci dünya müharibəsinin baş verməsinin səbəbkarı faşizm üzərində qələbənin 70-ci ildönümünü qeyd edir. May ayının 9-da Böyük Qələbə bayramı Qəbələdə də yüksək səviyyədə qeyd olunmuşdur.





Həmin gün səhər saat 12:00-da rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və aparatın məsul işçiləri ikinci dünya müharibəsinin iştirakçıları, ictimaiyyətin nümayəndələri, idarə və müəssisələrin rəhbərləri, gənclər, Böyük Vətən müharibəsində həlak olanların şərəfinə ucaldılmış “Ana” abidəsinin önünə gələrək, bu möhtəşəm xatirə kompleksi qarşısına tər gül dəstələri düzdülər. Müharibədə həlak olanların xatirəsini yad etdilər.

Böyük Vətən müharibəsi veteranlarından sağ qalanların bir qrupu buradan rayon ictimaiyyəti nümayəndələri ilə birlikdə “Karvansaray” otelə gəldilər. Onlar bayram süfrəsi arxasında əyləşdilər.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova mərasimi açıq elan edərək, veteranları təbrik etdi, onlara can sağlığı arzuladı.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev Böyük Qələbənin 70-ci ili ilə bağlı veteranları, qəbələliləri təbrik etdi. Çıxışına davam edən hörmətli başçı müharibələrin hər bir xalqın həyatında dəhşətli, insanlıqla bir araya sığmayan, bütün bəşəriyyətə zülm gətirən bir hadisə olduğunu bildirdi.

Natiq daha sonra faşizmin II Dünya müharibəsi zamanı keçmiş SSRİ xalqlarının başına gətirdiyi müsibətlərdən danışaraq, azərbaycanlıların da bu müharibədəki fədakarlıqlarından, arxa cəbhədəki insanların cəbhəyə verdikləri töhfələrdən danışdı.

Müharibə veteranları çıxış edərək onlara göstərilən dövlət qayğısından söz açdılar. Bu gün ölkə başçısının ulu öndərin siyasi kursunu uğurla davam etdirdiyini və veteranlarımıza yeni-yeni qayğılar göstərdiyini bildirdilər.

Müharibə veteranlarına rayon icra hakimiyyəti tərəfindən xatirə hədiyyələri, fəxri fərmanlar və 1941-45-ci illər Böyük Vətən Müharibəsində qələbənin 70 illiyinin yubiley medalları təqdim olunmuşdur.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**